# Azərbaycan - qüdrətli dövlətə çevrilən respublika

## PREZİDENT İLHAM ƏLİYEV: BİZ GÖRÜRÜK Kİ, HARDA VƏZİYYƏT AĞIRDIR BUNU DEYİRİK, YOL GÖSTƏRİRİK, ÖZ NÜMUNƏMİZİ GÖSTƏRİRİK



**Hər bir ailə dövlətin kiçik modelidir. Ailədə etibar olarsa, ailə başçısına inam və etimad varsa, cəmiyyətdə qarşılıqlı münasibətlər mövcuddursa, ailənin rifahının yaxşılaşması, cəmiyyətdə nüfuzunun artması sadəcə şərtdir. Lakin ailənin birliyinin təmin edilməsi də ailə başçısının çiyinlərinə düşən əsas vəzifədir. Əgər ailə başçısı fərdlərin deyil, ailənin inkişafını təmin edərsə, məqsədinə nail olar, ictimai nüfuzu artar.**

Təəssüf ki, bu inkişaf dostlarla yanaşı, xəbis insanlardan düşmənlər də formalaşdırır. Düşmənlər isə pusquda duraraq ailənin çətin zamanlarında, həm ailə içindən parçalanma yaratmaq, həm də onun ictimai nüfuzunun aşağı salınması üçün bütün çirkin vasitələrdən istifadə edərlər. Düşmənlərin fitnəsindən yayınmaq üçün ailənin birliyi, ailə başçısına sadiqliyi əsas şərtdir. Məhz bu amillər, həmçinin dostlarının və düşmənlərinin kimliyi də ailənin yaşadığı müvəqqəti xarakterli çətinliklərdə məlum olur.

Dövlətin də inkişafı daxili sabitlik, vətəndaşların rifahı beynəlxalq təşkilatlar və dövlətlərlə isti münasibətlərindən asılıdır. Təbii ki, bu istiqamətdə də dövlətin başçısı müəyyənləşdirir. Ancaq dövlət başçısının yürütdüyü siyasət daxildən dəstək görməzsə, diplomatik münasibətlər sarsılar, daxili sabitlik pozular, nəticədə ölkənin təhlükəsizliyi sual altına düşər. Bunu nəzərə alan düşmənlər isə hər zaman çalışırlar ki, daxili sabitliyi pozub, hökumətlə xalq arasında nifaq salsınlar.

### Azərbaycan ailə kimi

Hər kəsə məlumdur ki, Azərbaycan müstəqilliyini bərpa etdiyi dövrlərdə məşəqqətli dövr yaşayıb. Lakin ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə dövlətimizin rəhbərliyinə gətirilməsindən sonra daxili sabitliyin və inkişafın əsası qoyuldu.

İlk dəfə 2003-cü ildə xalqın böyük səsçoxluğu ilə Prezident seçilən İlham Əliyevin Ulu Öndərin siyasi kursuna sadiq qalaraq tətbiq etdiyi uğurlu idarəçilik prinsipləri nəticəsində ölkəmiz keçid dövrünü başa vuraraq daha böyük inkişafa nail oldu.

Prezident İlham Əliyev dövlət başçısı kimi daxili sabitliyin gücləndirilməsi, xalqın rifahının daha da yüksəldilməsi istiqamətində apardığı islahatlar, beynəlxalq birlik və dövlətlərlə qarşılıqlı maraqlara söykənən əməkdaşlığı inkişaf etdirməsi Azərbaycanı sürətli və dayanıqlı inkişaf edən dövlətlər sırasına yüksəltdi, ölkəmiz regional gücə çevrilməyə başladı. Təbii olaraq bunun da kökündə xalqın İlham Əliyevə inam və etimadının yüksək olması, onun Prezident kimi yürütdüyü siyasətə dəstək verməsi dayanır.

### Azərbaycan dünyada necə qəbul edilir?

"Dost dar gündə tanınar", - deyiblər. Bəli, dost da, düşmən da dar gündə tanınır. Məhz Azərbaycanın da dostları ilə düşmənləri dar gündə məlum olur.

Məlum olduğu kimi, regionda və dünyada baş verən neqativ proseslər nəticəsində yaşanan iqtisadi böhranın mənfi nəticələri Azərbaycan iqtisadiyyatına da təsir göstərdi. Dayanıqlı makroiqtisadi inkişafı şaxələndirmək istəyən hökumət "üzən məzənnə" sisteminə keçmək yolunu seçdi. Nəticədə də fürsət axtaran düşmənlər daxili sabitliyi pozmaq üçün əvvəlcə ajiotaj yaratdılar, sonra da çaxnaşma salmağa cəhd etdilər. Lakin hər zaman dövlət başçısına etimad göstərən xalq, bu dəfə də öz Prezidentinin ətrafında sıx birləşərək xəyanətkarlara və onlardan istifadə edən düşmənlərə imkan vermədi.

Bu gün dünyada əhali və ərazi baxımından kiçik dövlətlərdən biri olan Azərbaycan yerləşdiyi çətin geostrateji məkanda uğurlu idarəçiliyi nəticəsində artan qüdrətinə görə böyük dövlətlərlə eyni cərgədə dayanır. Prezident İlham Əliyevin fəaliyyətinin nəticəsidir ki, nəinki region ölkələri, eləcə də dünyanın güc mərkəzləri rəsmi Bakı ilə hesablaşır, Azərbaycanı öz yanında görmək istəyir, dünyada cərəyan edən proseslərdə dövlətimizin dəstəyinə ehtiyac duyurlar. Lakin Azərbaycan milli maraqları ilə uzlaşmayan heç bir prosesdə yer almayacağını qəti şəkildə bəyan edir. Prezident İlham Əliyev də fevralın 17-də Gəncədə "İmamzadə" dini kompleksinin açılış mərasimində çıxışı zamanı vurğulayıb ki, biz öz yolumuzla gedirik: "Heç bir ölkəyə imkan vermirik ki, daxili işimizə qarışsın və imkan verməyəcəyik". Bu isə dostlarımızı sevindirdiyi kimi düşmənlərimizi qıcıqlandırır.

Qeyd etmək yerinə düşər ki, bu gün güc mərkəzləri rəsmi Bakı ilə hesablaşmağa sadəcə məhkumdur. Çünki Azərbaycan sadəcə dildə və ya kağız üzərində deyil, reallıqda qüdrətli dövlətə çevrilib.

Diqqət yetirək, coğrafi olaraq Azərbaycandan uzaqda yerləşən Suriyanın taleyinin müzakirə olunduğu "Suriyaya və regiona dəstək" konfransında iştirak etmək üçün bir neçə dövlətin hökumət başçısı, o cümlədən BMT-nin baş katibi Pan Gi Mun, Böyük Britaniyanın Baş naziri Devid Kemeron, Almaniyanın Kansleri Angela Merkel, Norveçin Baş naziri Erna Solberq və Küveytin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabah Prezident İlham Əliyevi tədbirin keçirildiyi London şəhərinə dəvət etdiblər. Bundan əlavə, dövlətimizin başçısının Almaniyada keçirilən Münxen Təhlükəsizlik Konfransında iştirak etməsi və bu tədbirlərdə Prezident İlham Əliyevə xüsusi diqqətin göstərilməsi, Azərbaycan Prezidentinin dünyanın super güc mərkəzlərindən biri olan Çinə dövlət səfəri çərçivəsində yüksək səviyyədə qarşılanması və səfər zamanı iki dövlət arasında qarşılıqlı maraqlara əsaslanan dövlət müqavilələrinin imzalanmasından rəsmi Pekinin məmnunluğunu ifadə etməsi, NATO Baş Katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayın rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıda xarici işlər naziri Elmar Məmmədyarovla görüşü zamanı regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparması respublikamızın regional güc mərkəzi olduğunu, eyni zamanda dünya dövlətlərinin Azərbaycanla hesablaşdığını sübut edir. Bu da öz növbəsində düşmənlərimizin - torpaqlarımızın 20 faizini işğal altında saxlayan ermənilərin və onların havadarlarının, eləcə də Azərbaycanın dayanıqlı inkişafını, dünyada nüfuzunun və qüdrətinin artmasını həzm edə bilməyən qüvvələrin ölkəmizə qarşı qaralama kampaniyası aparmasına səbəb olur. Bu kampaniyalar isə beynəlxalq ictimaiyyət tərəfindən iflasa məhkum edilir.

Bir məqama da diqqət yetirmək yerinə düşər. Belə ki, manatın devalvasiyasından sonra bir sıra dövlətlərin iş adamları ölkəmizə investisiya yatırmaqda maraqlı olduqlarını bəyan edib, o cümlədən İsveçrə Konfederasiyasının Azərbaycandakı səfiri Filip Ştalder iqtisadiyyat naziri Şahin Mustafayevlə görüşü zamanı ölkəsinin Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafını dəstəkləməkdə, bir sıra İsveçrə şirkətlərinin isə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərməkdə maraqlı olduğunu diqqətə çatdırıb.

Vurğulamaq yerinə düşər ki, həyata keçirilmiş məqsədyönlü işlər nəticəsində 2015-ci ilin yekunlarına görə, BMT sənədlərində Azərbaycan sürətlə inkişaf edən ölkələr arasında mühüm yer tutub, Ümumdünya Davos İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətinə görə dünyada 40-cı yerdə, MDB məkanında isə 1-ci yerdə qərarlaşıb.

### Düşmənlərin təxribatları necə iflasa uğrayır?

Qeyd etmək yerinə düşər ki, respublikamızın beynəlxalq nüfuzuna xələl gətirmək üçün müxtəlif qarayaxma kampaniyaları aparan, daxili satqınlardan istifadə edərək respublikamızın sabitliyini pozmağa cəhd edən şər qüvvələr bir tərəfdən manatın devalvasiyasından sonra ölkədə süni şəkildə çaxnaşma yaratmağa çalışdıqları halda, digər tərəfdən ABŞ, Konqresinə sanksiyalarla bağlı qanun layihəsi təqdim etdilər. Lakin ən çətin vaxtlarda da xalqının yanında olduğunu nümayiş etdirən Prezident İlham Əliyevin ətrafında birləşən Azərbaycan vətəndaşları, eləcə də reallığı dərk edərək ABŞ-ın maraqlarını üstün tutan amerikalı konqresmenləri şər qüvvələrin fitnəsinə uymayaraq onların fəaliyyətini iflasa uğratdılar.

### Azərbaycan kiçik ölkədən qüdrətli dövlətə necə çevrildi?

Yuxarıda da qeyd etdiyimiz kimi, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra əsasını qoyduğu balanslaşdırılmış, qarşılıqlı maraqlara əsaslanan xarici, eləcə də sabitlik, sosial-iqtisadi inkişafı təmin edəcək daxili siyasət nəticəsində Azərbaycan bir sıra nüfuzlu beynəlxalq təşkilatlara üzv oldu, inkişaf etmiş, eləcə də güc mərkəzinə çevrilmiş dövlətlərlə Azərbaycanın dayanıqlı iqtisadi inkişafı təmin edəcək müqavilələr imzalandı.

Ümummilli lider Heydər Əliyevin siyasi kursuna sadiq qalan Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində Azərbaycan Respublikası daha da inkişaf edərək bugünkü inkişafına nail oldu. Dövlətimizin başçısı çevik qərarlar qəbul etmək bacarığı ilə dünyaya inkişafın Azərbaycan modelini təqdim edə bilib.

Prezident İlham Əliyev Gəncədə "İmamzadə" dini kompleksinin açılış mərasimində çıxışı zamanı vurğulayıb ki, bu gün Azərbaycan istənilən istiqamət üzrə öz inkişaf modelini ortaya qoyur və gözəl nəticələr də bu modelin nə qədər düzgün olduğunu sübut edir. O, qüdrətli dövlətin başçısına məxsus əminliklə bəyan edib ki, biz öz yolumuzla gedəcəyik: "Biz öz sözümüzü deyirik. Biz görürük ki, harda vəziyyət ağırdır bunu deyirik, yol göstəririk, öz nümunəmizi göstəririk. Sadəcə olaraq, kiminsə tənqid etmək üçün hansısa fikirləri demirik. Deyirik ki, baxın, Azərbaycanda bu məsələlər necə həll olunur. Niyə Azərbaycanda bu mümkündür? Niyə Azərbaycanda xalq vahid amal, ideya uğrunda birləşə bilir, başqa ölkələrdə süni səbəblər üzündən bir-birini öldürür, qanını tökür, qırır?"

Bu fikirlərdən də aydın olur ki, artıq Azərbaycan diktələrə boyun əyəcək kiçik ölkə deyil, yol göstərən, dünyada siyasi çəkisi olan qüdrətli dövlətdir. Əminik ki, ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında bundan sonra qüdrətini daha da artıracaq.

**Məhərrəm Ağalaroğlu**

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.*